# 2022-ci ilin dövlət büdcəsi Azərbaycanda sosial durumu daha da yaxşılaşdıracaq




***Azərbaycanda iqtisadi fəallığın hökumət tərəfindən dəstəklənməsi iqtisadiyyatın inkişaf dinamikasına müsbət təsir göstərir, makroiqtisadi sabitlik qorunur. Həmçinin, yüksək iqtisadi inkişaf amilləri iqtisadiyyatın qeyri-neft sektoruna böyük həcmdə investisiyaların yatırılmasına imkan verir.***

Xarici sərmayələrin üstünlük təşkil etməsi isə onu göstərir ki, Azərbaycan investisiyalar üçün cəlbedici ölkədir və xarici sərmayə respublikamızda lazımi səviyyədə nəzarətdə saxlanılır.

Bütün bunlarla bərabər, son illər ölkəmizdə makroiqtisadi sabitliyin təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, ixrac potensialının artırılması, sosialyönümlü siyasətin prioritetliyinin qorunub saxlanılması, maliyyə intizamı və şəffaflığın gücləndirilməsi kimi məsələlərə daha çox önəm verilir.

(ardı 4-cü səhifədə)

# 2022-ci ilin dövlət büdcəsi Azərbaycanda sosial durumu daha da yaxşılaşdıracaq

(əvvəli 1-ci səhifədə)

Eyni zamanda, büdcənin sosialyönümlü xarakter daşıması da diqqət mərkəzində saxlanılır. Bu da təsadüfi deyil. Çünki indiyədək respublikamızda əhalinin etibarlı sosial müdafiəsinin təmin edilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər milli inkişaf modelinin sosialyönümlü səciyyə daşıdığını tam təsdiqləyib. Qeyri-neft sektorunun və sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması məqsədilə reallaşdırılan islahatlar yoxsulluğun səviyyəsinin azaldılmasına, əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə, eləcə də ölkəmizin məşğulluq strategiyasının səmərəliliyinə əlverişli şərait yaradıb.

Milli Məclisdə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi zərfinə daxil olan məsələlərin müzakirəsi də aydın göstərir ki, gələn ilin əsas maliyyə sənədi əvvəlki illərdə olduğu kimi, sosialyönümlü olacaq. Başqa sözlə, dövlət büdcəsinin sosialyönümlüyünün davam etdirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi prioritet istiqamət olaraq saxlanılacaq.

Büdcədə xalqın rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin təmin edilməsi üçün 2022-ci il yanvarın 1-dən əməkhaqlarının və əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin, həmçinin digər sosial ödənişlərin artırılmasının qarşıya mühüm vəzifələr kimi qoyulması bunun bariz ifadəsidir. Bu, eyni zamanda, gələn ilin dövlət büdcəsinin də ənənəvi olaraq sosialyönümlü xarakter daşıdığını göstərir. Belə ki, büdcədə sosial xərclər 46,4 faizə çatdırılır və 2021-ci illə müqayisədə 13,5 faiz, yəni 1 milyard 650 milyon manat artırılır. Bu xərclərin maliyyə tutumunu 13 milyard 851 milyon manata çatdırmaq nəzərdə tutulur. Həmin xərclərin 60 faizi əməyin ödənilməsi ilə bağlıdır. Yeri gəlmişkən, 2022-ci ildə əməyin ödənilməsinə 8 milyard 97 milyon manat məbləğində vəsait təklif olunur. Sosial təminat xərcləri üçün dövlət büdcəsində 3 milyard



566 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Milli Məclisdə keçirilən müzakirələrin yekununda birinci oxunuşda qəbul edilən "Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsinə diqqət yetirsək, büdcənin sosialyönümlülüyü ilə bağlı digər məqamları da aydın görmək olur. Sənəddə DSMF-nin gələn il üçün gəlirləri və xərcləri bərabər olmaqla 5 milyard 307 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin göstəricisindən 429 milyon manat və ya 8,8 faiz çoxdur. Layihədə fondun gələn il xərclərinin 96,7 faizinin və ya 5 milyard 133 milyon manatının əhaliyə ödənişlər təşkil edəcəyi vurğulanır. Büdcə layihəsində əmək pensiyalarının sığorta hissəsinin artırılması üçün, təxminən, 210 milyon manat vəsait nəzərdə tutulur.

Əmək pensiyalarının orta aylıq məbləğinin isə 2022-ci ildə 345 manata yüksəldilməsi proqnozlaşdırılıb. Əmək pensiyasının minimum məbləğinin isə 200 manatdan 240 manata qaldırılması nəzərdə tutulub. Növbəti ildə yaşa görə pensiyanın cari ildəki 331 manatdan 41 manat artırılaraq 372 manata, əlilliyə görə pensiyanın 261 manatdan 38 manat artırılaraq 299 manata, ailə başçısını itirməyə görə pensiyanın 263 manatdan 35 manat artırılaraq 298 manata çatdırılması proqnozlaşdırılıb.

Bütün bunlarla bərabər, əvvəlki illərdə olduğu kimi, növbəti ildə də əvəzetmə əmsalının, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əmək haqqı məbləğinə nisbəti Avropa Sosial Xartiyasının tələblərinə cavab verməklə, 43 faiz olacağı gözlənilir.

Gələn il məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsi, hamiləlik və doğum, uşağın anadan olması hallarına, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsi üçün 182 milyon manat vəsait nəzərdə tutulub. Bu müavinətlərin ödənilməsi xərclərinin artım tempi bütün növ müavinətlər üzrə proqnozlaşdırılıb.

Fondun gəlirlərinin strukturuna gəldikdə isə 2022-ci il üçün gəlirlərin 78 faizinin və ya 4 milyard 148 milyon manatının məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalardan formalaşacağı, bunun cari ilin müvafiq göstəricisindən 646 milyon manat və ya 18 faiz çox olduğu bildirir.

"İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" qəbul edilən qanun layihəsində adı çəkilən fondun büdcəsi keçənilki büdcəsindən 14 faiz çox olmaqla, gəlirləri və xərcləri bərabər şəkildə – 180 milyon 375 min manat məbləğində müəyyənləşdirilib. Fondun büdcəsinin 75,7 faizinin, yəni, 136,4 milyon manatının işsizlikdən sığorta haqları üzrə, 24,3 faizi və ya 43,9 milyon manatının isə cari ilin qalıq vəsaiti hesabına formalaşdırılması proqnozlaşdırılıb.

Xərclərin bütün istiqamətləri üzrə ötən ildən çox vəsait nəzərdə tutulur. Xüsusən özünüməşğulluq tədbirlərinin təşkilinə 76 milyon 110 min manat məbləğin ayrılması 20 minə yaxın ailənin özünüməşğulluq proqramı ilə əhatə olunmasına şərait yaradır.

Milli Məclisdə "Azərbaycan Respublikasında 2022-ci il üçün yaşayış minimumu haqqında" qanunun layihəsinə dəbaxılıb. Sənədin müzakirəsində 2022-ci il üçün yaşayış minimumunun ölkə üzrə 196 manatdan 210 manata, əmək qabiliyyətli əhali üçün 207 manatdan 220 manata, pensiyaçılar üçün 162 manatdan 176 manata, uşaqlar üçün 175 manatdan 193 manata qaldırılması təklif edilib.

"Azərbaycan Respublikasında 2022-ci il üçün ehtiyac meyarının həddi haqqında" birinci oxunuşda qəbul edilən qanun layihəsində isə gələn il üçün ünvanlı dövlət sosial yardımının təyini üçün ehtiyac meyarının həddinin 200 manat məbləğində müəyyən edilməsi nəzərdə tutulub. Bu, cari ildəki 170 manat həddindən 17,6 faiz və ya 30 manat çoxdur. Beləliklə, ehtiyac meyarı ilə yaşayış minimumu arasındakı fərq azalaraq 10 manata düşür ki, nəticədə gələcəkdə ehtiyac meyarına ehtiyac aradan qalxmaqla ünvanlı dövlət sosial yardımının təyinatı da qanunvericiliyə uyğun olaraq yaşayış minimumu üzrə aparılacaq.

***"Xalq qəzeti"***

Xalq qəzeti.-2021.-19 noyabr.- S.1;4.